**«Bilirsən!»** Oxucu üçün əhəmiyyət daşıyan xəbər məlumatlarını müəyyən edin. Bunun ən asan yolu: təsəvvür edin ki, potensial oxucuya xəbəri çatdırırsız, cümləni «bilirsən...» sözü ilə başlayırsız, sonra isə məlumatın mətnini deyirsiz. Əgər yekunda əmələ gələn cümlə axmaq səslənməyəcəksə, onda çox güman əhəmiyyətli xəbərdir

Xeyr **[I] Bilirsən,** Nərimanabad rayonunun icra başçısı rayonun bələdiyyə sədri və Ağsaqqallar şurasının sədri ilə görüşüb.

Xeyr **[II] Bilirsən,** icra başçısı nəyə görəsə bələdiyyə sədrinə və Ağsaqqallar şurasının sədrinə təşəkkür edib.

Xeyr **[III] Bilirsən,** icra başçısı bələdiyyə sədri və Ağsaqqallar şurasının sədri ilə nəyisə müzakirə edib.

Xeyr **[IV] Bilirsən,** icra başçısı, bələdiyyə sədri və Ağsaqqallar şurasının sədri «Cəsurlar» klubunda uşaqlar və onların valideynləri ilə görüşüb.

Bəli **[V] Bilirsən,** Ağsaqqallar şurasının sədri «Gənc kosmonavtlar» dərnəyinin bərpasını təklif edib.

Xeyr **[VI] Bilirsən,** icra başçısı Nərimanabad rayonunda gənclərin milli-vətənpərvərlik ruhunda tərbiyə olunmasına diqqət yetirildiyini deyib.

Xeyr **[VII] Bilirsən,** icra başçısı «Gənc kosmonavtlar» dərnəyinin bərpasının mümkün olub olmadığını öyrənmək üçün işçi qrupunun yaradılmasına göstəriş verib.

Xeyr **[VIII] Bilirsən,** uşaqların valideynləri icra başçısına suallar verib.

Xeyr **[IX] Bilirsən,** bir valideyn (kim olduğunu bilmirik) məişət tullantıları zavodunun Nərimanabadda tikilib tikilməyəcəyi haqda sual verib.

Bəli **[X] Bilirsən,** icra başçısı məişət tullantıları zavodunun tikiləcəyi yer barəsində hökumətin qərar verdiyini bildirib.

Bəli **[XI] Bilirsən,** hökumət məişət tullantıları zavodunun Məmmədli kəndində tikilməsi barədə qərar verib.